olub, həm də anası kimi yaradıcılıq eşqi ilə yanıb. Ötən əsrin 30-cu illərin ortalarında "France-URSS" jurnalında oçerk və reportajlar dərc etdirib. Yeri gəlmişkən, bütün bunlar Fransada baş verib. Ailə Çexiyadan Fransaya köçmüşdü. Çünki Çexiyada rus mühacirlərə yaxşı baxılmırdı. Həm də fransız dilini yaxşı bildiyindən Ariadna ailəni vəziyyətdən çıxaracağına əmin idi.

Elə həmin günlərdə ailədə soyuqlaşma yaranır. Ariadna ilə anası arasında ixtilafların səbəbi kimi şairənin müxtəlif kişilərlə sevgi romanları yaşaması göstərilir. Əslində, münaqişə təkcə buna görə baş verməyib. Məsələ burasındadır ki, Ariadna və Sergey Rusiyaya qayıtmaq istəyiblər. Marina Svetayeva razılıq verməyib. Çünki əri Sergeyin adı qara siyahıya salındığından Vətəndə sakit həyat gözlənilməyib. Sergey sübut etməyə çalışıb ki, onun Kommunist Partiyasına rəğbəti keçmiş hadisələrin üstündən xətt çəkəcək. Həm də ona elə gəlib ki, Kolçak hərəkatında minlərlə əsgər iştirak etdiyindən onların heç də hamısı güllələnməyəcək. Kənardan Sovet İttifaqı cənnət kimi görünərmiş. Marina Svetayevanın etirazlarına fikir verən tapılmayıb, özü deyib özü eşidib. Şairə hiss etmişdi ki, sevdiyi qızı bu ideyanı ortaya atmaqla, əslində, onları ölümə aparır. Marina heç nəyi dəyişə bilməyib.

1937-ci ilin martında Ariadna Moskvaya qayıdıb. Sergey Efron isə elə həmin ilin payızında vətənə dönüb. Svetayeva isə yalnız 2 ildən sonra oğlu Georgi ilə sərhədi adlayıb. Nə Ariadna, nə də Efron düşünməyiblər ki, uçuruma yaxınlaşırlar. Fransız dilində sərbəst yazıb-oxuyan Ariadna "Revue de Moscou" jurnalında işə düzəlib. Svetayeva isə işsiz oturmuş, pulu qurtarmışdı. Hərdən tərcümələr etməsinə baxmayaraq, bütün bunlar yetərli deyildi. Həm də onun fikirləri sovet ədəbiyyatı ilə uyğun gəlməyib. Sakitliyin uzun sürməyəcəyini Marina hiss edib. Düşündüyü çin çıxıb.

1939-cu ildə Ariadna casusluqda ittiham edilib. Sergey Efron isə həmin ilin oktyabrında tutulub. Ariadnanı məcbur ediblər ki, özünün və atasının casusluğunu yazsın. O da fiziki əzablara dözə bilməyərək casusluq ittihamını üzərinə götürüb. Ariadnaya 8 il iş kəsilib. Sergey isə özünü günahkar bilməyib. Buna baxmayaraq o, 1941-ci ildə güllələnib.

Marina Svetayeva gözünü oğluna dikib. Oğlunun nəfəsini içinə çəkər, qazandığı pulla ailəni dolandırarmış. Lakin bu son işıq da sönüb. 1944-ci ildə Georgi Böyük Vətən müharibəsində qəhrəmanlıqla həlak olub. Marina Svetayeva tək qalıb. Acından ölməmək üçün Ədəbiyyat Fondunun bufetində qabları yuyarmış. Həmin günlərdə tez-tez xəstələnən şairə yuxusunda acından ölən qızı İrinanı görər, ağlaya-ağlaya bağışlanmasını xahiş edərmiş. Həyatının belə əzablar içində keçməsinə dözməyən Marina Sevtayeva özünü asaraq öldürüb. Bununla da əzablara son qoyulub.

Ailədən yeganə sağ qalan Ariadna olub. Lubyanka, Potmdakı həbsxana və Turuxan vilayətində "daimi yaşayış" yeri. Atasını öldürdü, anasını intihar həddinə çatdırdı, hamısını uçuruma atdı. Əgər o



Fransada Vətənə qayıtmaq barədə ideyanı ortaya atmasaydı, heç kim ölməyəcəkdi. 1947-ci ildə onu azadlığa buraxanda elə düşünüb ki, öz şerində yazdığı kimi, qanad açıb uzaqlara pərvazlanacaq. Heyhat. Yalnız 2 il azadlıqda qalıb. 1949-cu ildə yenə ardınca gəlib qolunu qandallayıblar. Qısamüddətli məhkəmədən sonra yenidən Turuxan vilayətinə göndəriblər. Hərdən Boris Pasternak ona maddi cəhətdən kömək edərmiş. 1955-ci ildə Ariadna Moskvaya qayıdıb. Nə bir yaşayış yeri olub, nə də qazanc üçün iş. Bibisi Yelizaveta Efron kommunal evdə yaşamağa icazə verir. Bibisi ona çox mehribanlıqla yanaşıb. Ariadna özünə gəlir, ağrıları azalır və anasının yaradıcılığına dair əlyazmaları qaydaya salır. Axı anası daha çox onu yaşatmış, qəndi kiçik bacısı İrinaya deyil, ona vermişdi. Ona öz ruhundan verib təhsil almasına yardım göstərmişdi. Marina Svetayevanın bu günə gəlib çatan əsərlərinin tanıdılmasında, arxivlərdən üzə çıxarılmasında Ariadnanın böyük rolu olub.

Kiçik qız İrina isə bunu bacarmadı. Müəmmalı taleli İrina. Onun anasının məsuliyyətsizliyi ucbatından ölməsi barədəki fikirlər hələ də sengimir. Yazıq İrina.

**Ədəbiyyat qəzeti.- 2017- ci il.- 20 yanvar.- S. 7.**